

*İnam Ata (Asif Ata) Hüseyn Cavidin yaradıcılığı haqqında məşhur "Yerdəkilərin Göy Həsrəti" adlı fəlsəfi-tənqidi əsərini yazıb. Cavid mövzusunda bir neçə yazı yazmışam. "Asif Atanın fəlsəfi-bədii tənqidi" əsərimin bir fəsli Atanın Cavidlə bağlı fikirlərinin şərhidir. Cavid nəinki Azərbaycanın, bəşər mədəniyyətinin nadir simalarındandır. O, bənzərsiz göy adamıdır. Onun əsərlərində Göyə yüksəlmək, insaniliyə yetmək çağırışı səslənir – inamlı, inadlı, ilahig*

*Hüseyn Cavid yaşadığı çağa, mühitə sığmırdı. Onunla toplum arasında yerlə göy fərqi vardı. O, yerdəkilərin qurtuluşu üçün çalışan göy adamı idi. Onun əsərləri, qəhrəmanları bunu göstərir. Əslində Şeyx Sənan ucalığını Hüseyn Cavid özü gerçəkcəsinə yaşadı, bununla da əbədiliyini göstərdi. Cavid "Şeyx Sənan"da özlərindən ayrı düşənlərin faciəsini dahiyanə şəkildə açıb göstərir. Cavidin Xəyyamı insanları göy idrakına qovuşmağa çağırır. Xəyyam mənəviyyatı zamana qarşıdır. O, zamandan, şəraitdən, mühitdən yüksək həqiqət istəyir. Cavidi oxuduqca bir daha anlayırsan ki, göy işığı gərəkdir yerdəkilərə. Onlara qaranlıqları yaran, idrakın göy səviyyəsi gərəkdir. Şairin qəhrəmanları Yer mənəviyyatından əl çəkirlər, Göy mənəviyyatına yüksəlirlər.*

*Cavidin "İblis"indəki insanilik harayı göysüzlərin inamsızlığına qarşıdır. Cavidin qəhrəmanları ləyaqətsizliyə, azğınlığa, zalımlığa, harınlığa, öz iradi imkanlarına inanmayanlara qarşı vuruşurlar.*

*Atanın Cavidlə bağlı əsərindən bir hissəni sunuram.*

***

İşıqlı Atalı



# İnam Ata (Asif Ata)
# Yerdəkilərin göy həsrəti
## (Fəlsəfi-bədii məqam)

### I Yazı

#### 1. Göylük

***Göy mövhumata, xurafata bağışlanmaz!***

***Həqiqət, ədalət, ülviyyət timsalıdır göy!***

***Yerin Göy yüksəkliyi var!***

***Yer dərdinin dərmanı göydədir!***

***Göy çağırışı səslənir ürəklərdə sonsuz!***

#### 2. Sənan göyü

Çağırış

Şeyx, gəl-gəl! Sevimli Sənan, gəl!
Sana layiq deyil o yer, yüksəl!
("Şeyx Sənan"dan)

Təkcə Xumar çağırmır Sənanı – ədalət, həqiqət, ülviyyət çağırır!

Xumar nişanəsində Ədalət, Həqiqət, Ülviyyət!

Xumar adlanan Ədalət, Həqiqət, Ülviyyət!

Xumarda tapılan Ədalət, Həqiqət, Ülviyyət!

Yuxusuna girən Ədalət, Həqiqət, Ülviyyət!

Göy halı gəlir ömrünə Sənanın.

Göy imtinasına yüksəlir Sənan!

Həqiqət saydığı nə varsa – yalanmış Sənanın, həqiqət – Xumarmışg

Ədalət saydığı nə varsa – yalanmış Sənanın, ədalət – Xumarmışg

Ülviyyət saydığı nə varsa – yalanmış Sənanın, ülviyyət – Xumarmışg

Həqiqəti yalnız aşiq gözü görər, seçər.

Ədaləti yalnız aşiq gözü görər, seçər.

Ülviyyəti yalnız aşiq gözü görər, seçər.

Sönük gözə Həqiqət görünməz, Ədalət görünməz, Ülviyyət görünməz.

Onu seçməz sənin gözün əsla,
Mələkdir, qadın deyil, haşa.

Həqiqət Xumar qədər cazibədar, uca, sirli; yaxın – həm də uzaq; aydın – həm də məchul; məsum – həm də hökmlü!g

Ədalət Xumar qədər cazibədar, uca, sirli; yaxın – həm də uzaq; aydın – həm də məchul; məsum – həm də hökmlü!g

Ülviyyət Xumar qədər cazibədar, uca, sirli; yaxın – həm də uzaq; aydın – həm də məchul; məsum – həm də hökmlü!g

Çağıran, cəlb edən, qəhr edən və dirildəng

Seyr edin bir o hüsni məbhuti,
O baxışlar nasıl da lahuti.
Oxunur gözlərində ülviyyət,
Sanki bir heykəli-ülühiyyət.



Ədalətdə göylənir Yer, Həqiqətdə göylənir Yer, Ülviyyətdə göylənir Yer!

***Göy qətiyyəti***

***Göy həsrəti göy qətiyyəti yaradır.***

***"Yerdəki göydən əl çək!" deyirlər aşiqə, əl çəkir.***

***'Quranı yandır!" deyirlər, yandırır.***

***'Donuz otar!" deyirlər, otarır.***

***Göy etiqadı tapan Yer etiqadından əl çəkir.***

***Göy ləyaqəti tapan Yer ləyaqətindən əl çəkir.***

***Göy tanrısı tapan Yer tanrısından əl çəkir.***

***Eşqdən başqa hər nə varsa, əvət,***
***Tövbə, min tövbə, eylədim nifrət! – deyir.***

İslama pənah gətirirlər.
Şeyxə səcdə qılırlar.
Fitnə-fəsada uyurlar.
Həsədlə həmdəmdirlər.
Sənana yaddırlar.

Sizdə insaf yox, həmiyyət yox!
Mürşidi-binəzərə hörmət yox!
Çünki yox ruhunuzda ülviyyət.
Qəlbiniz həp zəbuni-süfliyyət.
Tutsa afaqı şöləyi-hikmət,
Onu duymaz dumanlı gözlər, əvət.

Göysüzdürlər, bu səbəbdən də gözsüzdürlər, ruhsuzdurlar, Sənanı ittiham edirlər – Yer etiqadına əsasən:

Şeyximiz satdı dini-imanı,
Şeyximiz atdı hökmi-quranı – deyirlər.

Bilmirlər ki, əslində Sənan dinimanı satmadı – tapdı, Quranı atmadı – tapdı, şərab içmədi – haqq suyu içdi, xaç asmadı – çarmıxa çəkildi.

Yer Göyü

Yerdəki göylər Göy işığında sönür, kölgələşirg

Göy Ülviyyəti Doğanda Yer Ülviyyəti Batır.

Zəhra gözəldir, məsumdur, Yer ölçüsündə ülvidir, ancaq Xumar işığında sönükdür, Xumar peyda olduqda Sənan üçün itəndir, yox olandır, Xumar çağırışına qarşı müqavimətsizdir, acizdir, zəifdir.

Bu səbəbdən də faciəvidir, tənhadır, binəvadır.

Uzaqlığa qoşan bir ürək üçün uzaqdır!

Xumar Sənana hədsiz dərəcədə yaxındır, ondan hədsiz dərəcədə uzaq olduğu haldag

Zəhra Sənandan hədsiz dərəcədə uzaqdır, ona hədsiz dərəcədə yaxın olduğu haldag

Gözə görünən – ürəkdən silinir, gözə görünməyən – ürəkdə görünür Göy çağırışında. Göy Hökmü qarşısında Sənan ixtiyarsızdır, bu səbəbdən də Yer Göyünə etinasızdır.

Zəhranın göz yaşları Sənanı dayandıra bilmir, çünki Göyün Hökmü mütləqdir.

Altı ildir sənin əsirin ikən,
İndi biganəyəmmi könlünə mən?
Nə təbiət bu səndə? Həm nə tühaf,
Yoxmudur səndə mərhəmət, insaf?
(Zəhra)

Yerdə Göy sayılan, ürəkdə əsil göy doğana qədər yaşayır; ürəkdə Göy doğanda qeyri-adi Göy qətiyyəti yaranır Sənanlarda – Zəhraların fəlakətinə baisg

O məhəbbətlə parlayan gözlər
İndi bir başqa macəra söylər.
Qalmamış məndə zərrə tabu tavan,
Məni qəhr et də, lakin atma, aman!
(Zəhra)

Göy həsrəti yaşayır insanların qəlbində aramsız, hərarətli, daim artan, şiddətlənən və ayırır insanları nisbi göylərdən – amansızcasına, insafsızcasınag

İmtina məqamı peyda olur.

Sənanların baxtına gün doğanda Zəhraların baxtına qar yağır.

Göy həsrəti yaşayır ürəklərdə və bu, Yer fəlakətləri törədir.

***Yalançı Göy***

***Yerə bağlı Göy möcüzələri, Yeri-Göyü yaradan Allah əfsanəsi, Göydə məskən salan ilahi qüdrətlər, xülyavi ucalıqlar, cənnətlər, cəhənnəmlər, hurilər-pərilər, ziyarətgahlar, ayinlər, Yerə səpilən Göy; Sənanlara yağdırılan ittihamlar:***

***Bağırıb söyləyərdi pərvazsız:***
***Olsa merac, olar da ruhani,***
***Həp yalandır uruci-cismani,***
***Bir bəşərdir, – deyirdi, – peyğəmbər,***
***Heç görülmüşmü çıxsın ərşə bəşər?!***

***İnsan Göyü nə Yerdədir, nə cismani Göydə, İnsan Göyü İnsanın inamında, idrakında, mənəviyyatında, iradəsindədir və adamın Yer duyğularından, düşüncələrindən, imkanlarından, artıqdır, böyükdür, yüksəkdir.***

***İnsan Göyü insanın əzəli mahiyyətindədir!***

***Həmin mahiyyət gerçəkliyə sığmır!***

***Bu səbəbdən də Göy insanı gerçəklikdən yüksəyə çağırır; həm də xurafatdan, mövhumatdan, yalançı göylərdən imtinaya səsləyir:***

Kim ki, Allahı istəyir görmək,
Arasın qəlbi-tabnakında,
Arasın kəndi ruhi-pakında.

Göy könüllərdə görünür, adamlar isə onu Allahlarda axtarırlar, buna görə də Göyü Yerə endirirlər, çünki Allah əslində Yer zorunun timsalıdır, Göy Ülviyyətinin ifadəsi deyil.

Allah Yerdəki zorlulara bənzəyir, Göydəki kamillərə bənzəmir.

Yalançı gözlərdə Göy Yerə düşür, doğruçu gözlərdə Yer səmaviləşir.

Hər kimin qəlbi, ruhu düzgündür,
Daima hiss edər də haqqı görür.
Filosofanə ruha malik olan
Yaşamaz ayrı hərgiz Allahdan.

Göy inamda görünür – inama şübhə olmaz!

Göy idrakda görünür – idraka şübhə olmaz!

Göy mənəviyyatda görünür – mənəviyyata şübhə olmaz!

Göy iradədə görünür – iradəyə şübhə olmaz!

Şübhəli inam – inamsızlıqdır!

Şübhəli idrak – idraksızlıqdır!

Şübhəli mənəviyyat – mənəviyyatsızlıqdır!

Şübhəli iradə – iradəsizlikdir!

Şübhə yalançı inama, yalançı idraka, yalançı mənəviyyata, yalançı iradəyə tapınır.

Yerdəkilər şübhəyə tapınırlar, çünki yalandan xilas ola bilmirlər, bu səbəbdən də şübhəyə alqışlar söyləyirlər.

Şübhədir hər həqiqətin anası,
Şübhədir əhli-hikmətin babası,
Şübhə etməkdə haqlıdır insan!

Əslində şübhə Yer həqiqətinin, yəni nisbi, natam həqiqətin anasıdır.

Göy həqiqətinin, yəni bütöv, mütləq həqiqətin anası İnamdır.

Yer hikmətinə şübhələnərlər.

Göy hikmətinə inanarlar.

Nisbət

Yer – nisbiliyin timsalıdır.

Yerdə mütləq ədalət, mütləq həqiqət, mütləq ülviyyət olmur.

Göy – mütləqiliyin timsalıdır. Göydə Mütləqdən başqa heç nə olmur.

Yer insanın maddi məkanıdır.

Göy insanın mənəvi-ruhani məkanıdır.

Yersiz Göy yoxdur!

Göysüz İnsan yoxdur!

Göylülərin mənasında yerdəkilərə mənasız görünən həqiqət var.

Onu oxumaq üçün göyləşmək gərək!

Göylülərin divanəliyində yerdəkilərə ağılsız görünən idrak var.

Onu anlamaq üçün göyləşmək gərək!

Göylülərin fəqirliyində yerdəkilərə miskin görünən zənginlik var.

Onu görmək üçün göyləşmək gərək!

Onu keçmək gərək!

Zahirdə, üzdə aşkarlanır, təsdiqlənir yerdəkilər.

Batində, dərində aşkarlanır, təsdiqlənir göylülər.

Zahirə, dayaza çatır inamı, idrakı, mənəviyyatı, iradəsi yerdəkilərin.

Batinə, dərinə çatır inamı, idrakı, mənəviyyatı, iradəsi göylülərin.

Onları baxmayıb da zahirinə,
Bax riyasız, təmiz ürəklərinə
Dəlidir, sözlərində məna var,
Sərsəridir, başında sevda var!
Dəlilik başqa bir fəzilətdir,
Dinsiz olmaq da bir təriqətdir.

Göylülər həqiqət arayır, yerdəkilər yalana sığınırlar.

Göydəkilər könüldəkinə sitayiş edirlər, yerdəkilər kitabələrə.

Göylülər ayıq olduqları dərəcədə yuxulu görünürlər, yerdəkilər yuxulu olduqları dərəcədə özlərini ayıq sayırlar.

Göylülər dəlicəsinə yüksəkdə dururlar.

Yerdəkilər ağıllıcasına alçaqda dayanırlar.

Göylülər Mütləq axtarırlar.

Yerdəkilər Allahın ətəyindən yapışırlar.

Həqiqət istərəm, yalnız həqiqət,
Yetər artıq şəriət, ya təriqət!
Qulaq verməm mənəsla bir xitabə,
Pərəstiş eyləməm heç bir kitabə!
Əvət Quran, zəbur, incil, tövrat
Birər röya ki, zor təfsiri, heyhat!
Birər röya bütün əhvali-aləm,
Birər əfsanə cənnət, ya cəhənnəm!

Göylülər həqiqətçilərdir, yerdəkilər mövhumatçılar.

Göy qızı Xumar

Hiylədən, fəsaddan, şəhvətdən, varidatdan uzaq, günahsız, məsum, eşq məqamı üçün doğulmuş, saf, zərif, həssas, ismətli, yerdəkilərdən uzaq, ülvi, adil, inamlı, səcdəli, səcdəgahg

gbaşqa dürlü bir xilqət,
Onu Mütləq görən edər heyrət.
Bu uçuq dam Xumar üçün ələn,
Daha qiymətlidir monastırdan.
Bu onun səcdəgahı, qibləsidir,
Şeyx onun heykəli-müqəddəsidir.

Sevdirdiyi dərəcədə sevəng

Sənanı həqiqətə, ədalətə, ülviyyətə çatdıran, Sənan adlı həqiqətə, ədalətə, ülviyyətə yetən!

Göyə çağırılan Göy qızı!g

***Göy oğlu Sənan***

***Başdan-binadan, əzəli aşiq!***

***Əzabkeş, dərdə dərman arayan, döyülən, söyülən, təhqir olunan və Göyləşən, paklaşan; imtinası bütöv, yolu bir!***

***Göy etiqadlı:***
***Gediniz, arkadaşlarım, gediniz,***
***Başqa bir şeyxə iqtida ediniz.***
***İştə mən naili-vüsal oldum,***
***Aradım nuri-həqqi də buldum.***

***Göy əhvallı:***
***Gecə yıldızla, ayla söhbət edər,***
***Düşünər daima sabahə qədər.***

***Övliya üzünü göy səadətinə çatan:***
***Ülvi Xumarım yolunda***
***Hər bəla məncə bir səadətdir,***
***Hər cəfa sanki bir məhəbbətdir!***

***Göy idraklı, yerdəkilərin anlağından uzaq:***
***Onu idrak üçün kamal istər,***
***Əhli-zövq istər, əhli-hal istər.***

***Göy qüdrətli, odda yanmayan odlu aşiq:***
***Kim ki, eşq atəşiylə oldu hədər,***
***Onu yandırmaz öylə atəşlər.***

***Göy inamlı:***
***Əbədiyyət mənim məzarımdır,***
***Çünki sultani-eşq yarımdır!***
***Eşq üçün can nisar edər ərlər,***
***Əbədi bir həyat içində gülər.***

***Göyə çağırılan Göy oğludur Sənan.***

(ardı var)